# BƏZİ FƏALİYYƏT NÖVLƏRİNƏ XÜSUSİ RAZILIQ (LİSENZİYA) VERİLMƏSİ SAHƏSİNDƏ ƏLAVƏ TƏDBİRLƏR HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

[30 Dekabr, 2006]

Xüsusi razılıq (lisenziya) verilən fəaliyyət növlərinin siyahısını təkmilləşdirmək məqsədi ilə

**QƏRARA ALIRAM:**

1. "Bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi qaydalarının təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 2 sentyabr tarixli 782 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinin Siyahısı"na (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 9, maddə 555; 2003-cü il, № 3, maddə 153, № 10, maddə 570; 2005-ci il, № 2, maddə 69, № 4, maddələr 301, 307, № 8, maddə 721, № 10, maddə 919, № 12, maddələr 1104, 1117, 2006-cı il, № 7, maddə 591, № 9, maddə 743, Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 29 noyabr tarixli 483 nömrəli Fərmanı) aşağıdakı əlavə və dəyişikliklər edilsin:

1.1. Fərmanın 2-ci bəndi aşağıdakı redaksiyada verilsin:

"Xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinin siyahısı və həmin fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsinə görə ödənilən dövlət rüsumunun məbləğləri" (Əlavə № 2) təsdiq edilsin.";

1.2. həmin Fərmanla təsdiq edilmiş Əlavə № 2 yeni redaksiyada verilsin (əlavə olunur).

2. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 26 dekabr tarixli 621 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, №12, maddə 767) 1-ci bəndinin 5-ci abzası çıxarılsın.

3. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

3.1. qüvvədə olan qanunvericilik aktlarının bu Fərmana uyğunlaşdırılmasına dair təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Bu Fərman 2007-ci il yanvarın 1-dən qüvvəyə minir.

**İlham Əliyev**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 29 dekabr 2006-cı il.

***AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2006-CI İL 29 DEKABR TARIXLIİFƏRMANI İLƏ TƏSDİQ EDİLMİŞDİR***

# XÜSUSİ RAZILIQ (LİSENZİYA) TƏLƏB OLUNAN FƏALİYYƏT NÖVLƏRİNİN SİYAHISI VƏ HƏMİN FƏALİYYƏT NÖVLƏRİNƏ XÜSUSİ RAZILIQ (LİSENZİYA) VERİLMƏSİNƏ GÖRƏ ÖDƏNİLƏN DÖVLƏT RÜSUMUNUN MƏBLƏĞLƏRİ

[30 Dekabr, 2006]

Sıra№ si Fəaliyyət növlərinin adı Lisenziya verən icra hakimiyyəti orqanı Dövlət rüsumunun məbləği (manatla)

1. I və II məsuliyyət səviyyəli bina və tikililərin dövlət standartlarına uyğun olaraq layihələndirilməsi və mühəndis axtarışı Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi 1100

2. Kartoqrafiya fəaliyyəti Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi 1100

3. Radioaktiv və ionizə şüaları verən maddələrin tullantılarının saxlanması və basdırılması Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi 1100

4. Toksiki istehsalat tullantılarının ütilizasiyası və zərərsizləşdirilməsi Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi 1100

5. Əlvan metal, tərkibində qiymətli metallar və daşlar olan sənaye və istehsalat tullantılarının tədarükü, emalı və satışı Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi 2200

6. Neft məhsullarının satışı Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi 5500

7. Qaz məhsullarının satışı Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi 5500

8. Tibb fəaliyyəti Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi 5500

9. Əczaçılıq fəaliyyəti Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi 5500

10. Etil (yeyinti) spirtinin və alkoqollu içkilərin (şərabın, konyakın, arağın və siyahısı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilən digər alkoqollu içkilərin):

10.1. istehsalı Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi 5500

10.2. idxalı 11000

10.3. satışı Şəhər və rayon (şəhər rayonları istisna olmaqla) icra hakimiyyəti orqanları 220

11. Tütün məmulatının:

11.1. istehsalı Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi 5500

11.2. idxalı 11000

11.3. satışı Şəhər və rayon (şəhər rayonları istisna olmaqla) icra hakimiyyəti orqanları 220

12. Əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsinə müvəkkil edilməmiş hüquqi və fiziki şəxslər tərəfindən geyri-leqal yolla informasiya alınması üçün nəzərdə tutulmuş texniki vasitələrin işlənilməsi, istehsalı, satışı, alınması, ölkəyə gətirilməsi və ölkədən çıxarılması Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi 2200

13. Su nəqliyyatı ilə yük və sərnişin daşınması Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi 5500

14. Hava nəqliyyatı ilə yük və sərnişin daşınması Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi 5500

15. Rabitə xidmətləri: Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi

15.1. telefon (məftilli) 5000

15.2. sellülar (mobil) 11000

15.3. radiotrank və simsiz telefon 5000

15.4. ölkədaxili telekommunikasiya kanallarının təşkili 5000

15.5. beynəlxalq telekommunikasiya kanallarının təşkili 11000

15.6. İP- telefoniya (internet-telefoniya) 8000

15.7. məlumatların ötürülməsi (data) 6000

15.8. sürətli poçt xidməti 2500

16. İnformasiya mühafizə vasitələrinin layihələndirilməsi və istehsalı sahəsində fəaliyyəti Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi

**17. Təhsil müəssisələrinin fəaliyyəti: Azərbaycan Respublikasının Təhsil Nazirliyi**

**17.1. məktəbəqədər tərbiyə müəssisələri 2500**

**17.2. ümumtəhsil müəssisələri (liseylər və gimnaziyalar daxil olmaqla), peşə məktəbləri və peşə liseyləri, orta ixtisas təhsil müəssisələri 4000**

**17.3. ali təhsil müəssisələri 5500**

18. Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə işə düzəlmələrində vasitəçilik fəaliyyəti Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi 2200

19. Bank fəaliyyəti: Azərbaycan Respublikasının Milli Baknı

19.1. banklar 22000

19.2. bank olmayan kredit təşkilatları 1100

20. Qeyri-dövlət pensiya fondlarının fəaliyyəti Azərbaycan Respublikasının Maliyyə Nazirliyi 11000

21. Sığorta fəaliyyəti Azərbaycan Respublikasının Maliyyə Nazirliyi 22000

22. Auditor fəaliyyəti Azərbaycan Respublikasının Auditorlar Palatası 2200

23. Əmtəə birjasının fəaliyyəti Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi 11000

24. Fond birjasının fəaliyyəti Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi 11000

25. İnvestisiya fondunun fəaliyyəti Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi 11000

26. Qiymətli kağızlar bazarının professional iştirakçılarının fəaliyyəti (broker, diler, qiymətli kağızların idarə edilməsi, qarşılıqlı öhdəliklərin müəyyən edilməsi (klirinq), depozitar, qiymətli kağız sahiblərinin reyestrinin aparılması, qiymətli kağızlar bazarında ticarətin təşkili) Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi 5500

27. Bütün növ qiymətli kağız blanklarının hazırlanması və satışı üzrə fəaliyyət Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi 5500

28. Ciddi hesabat blanklarının hazırlanması Azərbaycan Respublikasının Maliyyə Nazirliyi 2200

29. Müxtəlif növ möhürlərin və ştampların hazırlanması Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi 2200

30. Turizm fəaliyyəti Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi 5500

31. Gömrük broker fəaliyyəti Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi 11000

32. Gömrük anbarlarının, müvəqqəti saxlanc anbarlarının, sərbəst anbarların təsis edilməsi Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi 11000

33. Teleradio yayımı (televiziya və radio yayımı, əlavə informasiya yayımı, kabel şəbəkəsi yayımı, peyk vasitəsilə yayım, xarici teleradio kanallarının peyk vasitəsilə teleradio yayımının kodlaşdırılmış qurğularla həyata keçirilməsini təmin edən fəaliyyət) Milli Televiziya və Radio Şurası 11000

34. Yabanı dərman bitkiləri xammalının yığılması Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi 550

35. Avtomobil nəqliyyatı ilə beynəlxalq, şəhərlərarası, şəhərdaxili sərnişin və yük daşınması: Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi

35.1. avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşınması 150

35.2. avtomobil nəqliyyatı ilə şəhərlərarası, şəhərdaxili sərnişin və yük daşınması 110

36. Prekursorların idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi 550

37. Mehmanxana və mehmanxana tipli obyektlərin fəaliyyəti Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi 1500

38. Təhlükəli yüklərin nəqliyyat vasitəsi ilə daşınması Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi 550

39. Maye və təbii qaz təsərrüfatı obyektlərinin quraşdırılması və istismarı Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi 2200

40. Dağ-mədən işləri, dağ və buruq qazmalarının aparılması Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi 2200

41. Liftlərin quraşdırılması və təmiri Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi 550

42. Attraksionların quraşdırılması və istismarı Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi 2500

43. Energetika obyektlərinin, avadanlıqların və qurğuların quraşdırılması, sazlanması və təmiri Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi 2500

44. Qaldırıcı qurğuların, metallurqiya avadanlıqlarının, təzyiq altında işləyən qazanların, tutumların istehsalı, quraşdırılması və təmiri Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi 2500

45. Təhlükə potensiallı obyektlərdə istismar olunan avadanlıqların və texniki qurğuların diaqnostikası və digər texniki yoxlamaların keçirilməsi Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi 2500

46. Müəssisələrin və yaşayış məntəqələrinin müqavilə əsasında yanğınlardan qorunması Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi 3600

47. Yanğınsöndürmə texnikası məhsulunun istehsalı və alınması, sınaqların keçirilməsi Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi 3600

48. Yanğından mühafizə sistemlərinin və vasitələrinin quraşdırılması, texniki xidməti və təmiri; Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi 3600

49. Yanğınsöndürmə ləvazimatının, ilkin yanğınsöndürmə vasitələrinin təmiri və onlara xidmət, yanğınsöndürmə vasitələrinin keyfiyyətinin bərpası Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi 3600

50. Yanğından mühafizə binalarının, qurğularının, otaqlarının tikilməsi, yenidən qurulması və təmiri Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi 3600